**Şəhər və rayon təhsil idarə və şöbələri rəhbərlərinin nəzərinə!**

Hər il Dövlət İmtahan Mərkəzinə şəhər və rayon təhsil idarə və şöbələrindən onların tabeçiliyində olan ümumi orta təhsil müəssisələrinin məzunlarının təhsil haqqında sənədlərindən (attestat, şəhadətnamə və arayış) DİM-in keçirdiyi qəbul imtahanlarında istifadə edilib-edilməməsinə dair çoxlu sayda sorğu daxil olur.

Sorğu məktublarının və onlara verilən cavab məktublarının kağız daşıyıcılarda hazırlanıb göndərilməsi həm vaxt itkisinə, həm də maliyyə vəsaitinin sərf olunmasına gətirib çıxarır. Bu problemi aradan qaldırmaq və vətəndaşlara daha keyfiyyətli xidmət göstərmək məqsədilə DİM tərəfindən **“Təhsil idarə və şöbələrinə DİM-in elektron arxivindən vətəndaş haqqında çıxarışın verilməsi”** elektron xidməti hazırlanmış və Elektron Hökumət Portalında yerləşdirmişdir.

Şəhər və rayon təhsil idarə və şöbələri tərəfindən təyin olunmuş məsul şəxslər haqqında məlumatlar DİM-ə təqdim edildikdən sonra onların adları istifadəçilər siyahısına əlavə ediləcək. Eyni zamanda məsul şəxslər Elektron Hökumət Portalında mövcud autentifikasiya vasitələrindən birini istifadə etməklə qeydiyyatdan keçməlidirlər.

Yalnız bundan sonra məsul şəxslər elektron xidmətdən istifadə etmək hüququna malik olacaqlar.

Xidmət vasitəsilə göndərilmiş sorğuya cavab elektron imza ilə imzalanmış fayl şəkildə veriləcəkdir.